**Xalq qəzeti. -** 2022.- 15 sentyabr. - № 199. - S. 8.

# 15 Sentyabr – tarixə qızıl hərflərlə yazılan gün!

***Bu gün Bakının işğaldan azad edilməsindən 104 il ötür***

**Məsaim Abdullayev**

Düz 104 il bundan əvvəl Azərbaycan xalqının taleyində möhtəşəm hadisə baş verib. Belə ki, 1918-ci ilin 15 sentyabrında türk xalqının böyük oğlu Nuru Paşanın komandanlığı altında Bakı erməni-daşnak işğalından azad olunub. Şəhər sakinləri, eləcə də bütün Azərbaycan bunu böyük bayram kimi sonsuz sevinc hissi və yüksək coşqu ilə qeyd ediblər. O vaxtdan 15 sentyabr tarixi xalqımızın qəlbində iki qardaş xalqın birlik və həmrəylik rəmzi kimi yaşayır və əsrlər, minillər keçsə belə, bu qələbə millətin yaddaşından silinməyəcək.

Nuru paşa at belində
Türkiyədən – Qarsdan gəlir.
“Azərbaycan” deyə-deyə,
Yaralanmış aslan gəlir...

Bu misralar sevimli şairimiz Nəriman Həsənzadənin “Nuru paşa” poemasındandır. Şairin çox böyük məhəbbətlə tərənnüm etdiyi Nuru paşanın adı Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb.

Bəli, türk xalqının qeyrətli oğlu Nuru paşanın komandanlığı ilə Bakı-nın erməni-daşnak işğalından azad edildiyi o şərəfli tarixi günlərdən 104 il ötür. Xalqımızın Nuru paşaya olan sevgisi və ehtiramı bir an belə azal-maq bilmir. Qədirbilən soydaşlarımı-zın öz xilaskarına sevgisi həqiqətən əbədi və möhtəşəmdir!

1918-ci il mayın sonlarında Gəncəyə gələn Nuru paşanın səfəri haqqında Azərbaycan Cümhuriyyətinin liderlərindən biri ya-zırdı: “O zaman müdhiş bir anarxiya-ya məruz, digər tərəfdən də, bolşevik təcavüzü ilə təhdid olunan Gəncə Nuru paşanı göydən enmiş xilaskar bir mələk kimi qarşılamışdı”.

1918-ci il mayın 27-də Gürcüsta-nın ardınca Zaqafqaziya Seymindən ayrılaraq, müstəqilliyini elan edən Azərbaycan Şərqdə ilk respublika-nın əsasını qoyur. Azərbaycan Milli Şurasının Rəyasət Heyəti seçilir. Milli Şura həmin iclasda Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti Hökumətinin tərkibini də təsdiq edir.

Azərbaycanın müstəqilliyi son dərəcə ağır və mürəkkəb bir tarixi dövrə təsadüf etmişdi. Birinci dün-ya müharibəsi bitsə də, beynəlxalq aləmdə gərginlik davam edirdi. 1918-ci il iyunun 4-də yeni müstəqillik qazanmış Azərbaycan qonşu Gürcüs-tan və Ermənistanla birlikdə Batumidə Osmanlı Türkiyəsi ilə sülh və dostluq haqqında müqavilə bağladı. “Batumi” müqaviləsi ilə Osmanlı Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət oldu. Müqavilənin 4-cü bəndində deyilirdi: “Ehtiyac olduğu təqdirdə Osmanlı hökuməti qayda-qanunu və ölkənin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Cümhuriyyətinə silahlı qüvvələrlə yardım etməyi öhdəsinə götürür”.

Azərbaycanda, əsasən erməni daşnakları və bolşeviklərin nəzarətində olan Bakıda vəziyyət isə daha ağır idi. Düşmənlər 1918-ci ildə törətdiklər mart qırğınların-dan sonra Bakını güzəştə getmək niyyətində deyildilər. Şaumyanın Leninlə mütəmadi məktublaşması da göstərir ki, daşnaklar və ruslar neftlə zəngin Bakını itirməyi ağıllarına belə gətirmirdilər.

1918-ci il iyunun 16-da Milli Şura və Müvəqqəti Hökumət Tiflisdən Gəncəyə köçür. Ölkədə yaranmış real vəziyyəti nəzərə alan Azərbaycan Milli Şurası iyunun 17-də Gəncədə mühüm qərar verdi: fəaliyyətini müvəqqəti olaraq dayandırıb, icraedici və qanunverici hakimiyyət Müəssislər Məclisi çağırılanadək F.Xoyskinin sədrliyi ilə yaradılmış ikin-ci Müvəqqəti Hökumətə həvalə edildi.

F.Xoyski Azərbaycan hökuməti adından Osmanlı Türkiyəsindən hərbi yardım istəmişdi. Parlamentin iclaslarının birində F. Xoyski bu məsələyə toxundu: “May ayının 28-də Azərbaycan istiqlaliyyətini elan edərək, öz hökumətini yaratdısa da, bu hökumət qanun və qayda yaratmaq, ölkənin müdafiəsi işində aciz idi. Çünki heç bir hərbi qüvvəmiz və silahımız yox idi. Türkiyə ilə bağladığımız müqaviləyə əsasən, Azərbaycan Türkiyədən bir qədər əsgəri yardım ala bilərdi. Hökumət bu haqda Türkiyə hökumətinə müraciət etdi. Özünüz bilirsiniz ki, Türkiyə öz borcunu yerinə yetirdi”.

Osmanlının müdafiə naziri Ənvər paşanın əmri ilə 1918-ci ilin iyun ayında türk qoşunları Nuru və Xəlil paşanın komandanlığı altında Azərbaycana göndərildi. Nuru paşa 1889-cu ildə İstanbulda hərbçi ailəsində anadan olmuşdur. 1906-cı ildə Quru Qoşunları hərbi məktəbinə daxil olub. 1909-cu ildə həmin məktəbi leytenant rütbəsi ilə bitirmişdi. Gənc zabit III ordu komandanlığında zabit kimi fəaliyyətə başlamış,

1911-ci ildə Hərbi Akademiyanı bitirdikdən sonra, 1913-cü ildə kapitan, 1916-cı ildə mayor, 1918-ci ildə polkovnik-leytenant rütbələrinə yüksəlmişdi.

Nuru paşa Birinci Dünya müharibəsi zamanı Liviyada cəbhə komandanı kimi Osmanlı və onun müttəfiqlərinə qarşı vuru-şan qüvvələrlə döyüşlərə rəhbərlik etmişdi. Cəbhədə göstərdiyi qəhrəmanlığa görə 1916-cı ildə "Altın ləyaqət", Almaniyanın "Dəmir xaç" ordeninə, habelə Avstriya-Macarıstan imperiyasının III dərəcəli fərqlənmə nişanına layiq görülmüşdü.

Türkiyənin iki qrupdan ibarət 5-ci Qafqaz diviziyası Gümrü–Dilican–Qazax istiqamətində hərəkət etdi. Birinci qrup iyunun 11-də, ikinci qrup isə iyunun 12-də Qazaxa çatdı. Türk ordusu burada böyük coşqu ilə qar-şılandı. Sonra Karpat cəbhəsindən 15-ci Çanaqqala diviziyası Gəncəyə gəldi. Nuru paşanın komandanlığı al-tında Azərbaycan korpusu ilə birləşən bu hissələr Qafqaz İslam Ordusunu yaratdılar.

29 yaşlı Nuru paşa Qafqaz İslam Ordusuna komandan təyin olundu. Nuru paşanın qoşunları 1918-ci il iyunun 17-dən sentyabrın 14-dək bir-birinin ardınca uğurlu döyüş əməliyyatları keçirdi. İyul ayının əvvəllərində Qafqaz İslam Ordusu Göyçay ətrafında, əsasən, ermənilərdən ibarət Bakı Sovetinin hərbi qüvvələrini məğlub etdi və Bakı istiqamətində irəlilədi. 1918-ci il iyulun sonunda milli qüvvələr Bakı ətrafına çatdılar.

Həmin günlərdə Bakıda süqu-ta uğrayan qatı millətçi, bolşevik S.Şaumyanın hakimiyyətini Bakıda "Sentrokaspi" diktaturası əvəz etdi. İngilislərdən hərbi yardım alan oyun-caq diktatura Qafqaz İslam Ordusu-nun hücumu qarşısında duruş gətirə bilmədi. Şiddətli döyüşlərdən sonra, 1918-ci il sentyabrın 15-də – Qurban bayramı günü Azərbaycan-Türkiyə ordu birləşmələri Bakını azad etdi. 15 sentyabrda Bakı işğaldan tamamilə azad olundu.

Bu məqamda bir daha hörmətli N.Həsənzadənin "Nuru paşa" poema-sından bu misraları ucadan söyləmək istərdim:

Türk sözüylə, türk qılıncı
Həmrəy oldu, qarı düşmən.
Qalxdıq İslam Ordusunun
Azərbaycan səngərindən.
Türkiyədən Quran gəldi,
Əzan gəldi.
Öz adını öz qanıyla
Yazan gəldi.

Görkəmli yazıçı Manaf Süleyma-nov məşhur "Eşitdiklərim, oxuduqla-rım, gördüklərim" əsərində qəhrəman türk ordusunun Bakıya gəlişi barədə olduqca qiymətli məlumat və təəssüratlarını qələmə almışdır. Ya-zıçının qeydlərindən bəlli olur ki, xal-qımız xilaskar türk əsgərlərini böyük sevinc və məhəbbətlə qarşılamışdır.

Lakin Türkiyənin Birinci Dünya müharibəsində məğlubiyyəti Nuru paşanın başladığı işi yarıda qoydu. 1918-ci il oktyabrın 30-da Böyük Britaniya ilə Türkiyə arasında bağ-lanmış Mudros sazişinə görə, türk orduları Azərbaycanı tərk etməyə məcbur oldu. General Tomson başda olmaqla müttəfiq orduları Bakıya gəldi. Nuru paşa 1920-ci il aprel çevrilişindən sonra da bir qrup türk zabiti ilə Dağıstandan keçərək gizli şəkildə Şuşaya gəlmiş, bolşeviklərə qarşı döyüşmüş, Aran, Qarabağ və Zaqatala bölgələrində xalqı bolşeviklərə qarşı üsyana qaldırmışdı. Sonra bir Azərbaycan süvari alayı və bir batareya ilə Türkiyəyə dönən Nuru paşa Ərzuruma gələrək Naxçı-van dəstəsinə qoşulmuş və azadlıq mücadiləsində iştirak etmişdi. 1923-cü ildə təqaüdə çıxan Nuru paşa İstanbul ətrafında dəmirtökmə fabriki açmışdı. İkinci Dünya müharibəsi illərində bu fabrik hərbi sifarişlə qumbara, minaatan və sair silahlar istehsal edirdi.

1949-cu il martın 2-də Nuru paşa silah fabrikində baş vermiş ağır qəza nəticəsində həlak oldu. Güclü partlayış nəticəsində Nuru paşanın cəsədini tapmaq mümkün olmadı. Hadisə yerində olan Xəlil Kut paşa isə möcüzə nəticəsində sağ qalmışdı. Mətbuat partlayışın təxribat olduğunu yazsa da, hökumət məsələyə aydınlıq gətirmədi.

...Cəmi iki il bundan əvvəlin söhbətidir. 2020-ci ilin 27 sentyab-rında Azərbaycan xalqı doğma, əzəli torpaqlarını düşməndən azad etmək uğrunda şanlı Vətən sava-şına başlayanda, türk qardaşları-mız müharibənin ilk günündən son anınadək bizə hərtərəfli dəstək ol-dular. Azərbaycan xalqı türk xalqının o çətin, gərgin anlardakı qətiyyət və cəsarətini, mərdlik və sədaqətini heç vaxt unutmayacaq.

Məlum olduğu kimi, 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respub-likasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak etdilər.

Azərbaycan Prezidenti tədbirdə dərin məzmunlu nitq söyləyərək demişdir: “Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürur-landırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqları-mıza, eyni zamanda, bütün dünyaya göstəririk”.

Bəli, bu, bir həqiqətdir. Qardaş Türkiyənin Prezidenti tədbirdə parlaq çıxışı zamanı demişdir: “Gözəlliyinə qurban olduğumuz Laçın artıq azaddır. Laçın kimi, Şuşa kimi Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər də artıq azaddır. Bu gün Azərbaycanın milli şairi, böyük müca-hid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordu-sunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimo-vun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünya-sı üçün zəfər və qürur günüdür”.

Bəli, nə qədər ki, Azərbaycan Türkiyənin, Türkiyə Azərbaycanın yanındadır, bizim xalqlarımıza və dövlətlərinizə heç bir zaval yoxdur və olmayacaq. Türkiyə və Azərbaycanda yeni Nuru Paşalar, Mübariz İbrahimovlar, saysız-hesabsız mərd oğullar doğulub böyüyəcəklər, Çanaq-qalada, Şuşada qaldırılan şanlı bay-raqlar heç vaxt enməyəcək. Bir sözlə, yenilməz türk ruhu və qəhrəmanlığı əbədi yaşayacaq!